

REGİONLARIN SOSİAL-İQTİSADİ İNKİŞAFI
III DÖVLƏT PROQRAMI





# Turizm qeyri-neft sektorunun inkişafında xüsusi çəkiyə malikdir

Azərbaycana turist axını ildən-ilə artmaqdadır. Bu səbəbdən paytaxtda və digər turist zonalarında keyfiyyətli xidmət səviyyəsinə malik çoxlu sayda mehmanxana tikilib istifadəyə verilib.

Bunlara brend şəbəkəli mehmanxanaları - “Four Seasons Hotel Baku”, “Hyatt Regency”, “JW Marriott Absheron Baku Hotel”, “Jumeirah Bilgah Beach Hotel”, “Grand Hotel Europe”, “Hilton Baku”nu, regionlarda isə Qafqaz mehmanxanalar şəbəkəsini, Qəbələ şəhərindəki “Gabaland” attraksionlar parkını, Qusar rayonundakı möhtəşəm “Şahdağ” Qış-Yay Turizm Kompleksini, həm idmanla məşğul olmaq, həm də turistləri qəbul etmək üçün müvafiq infrastruktura malik 15-dən çox olimpiya idman kompleksini və digərlərini göstərmək olar.

Turizm zonalarında infrastrukturun genişləndirilməsi istiqamətində yeni layihələrin icrası hazırda davam etdirilir. Azərbaycan Prezidenti İlham Əliyev avqustun 10-da Qəbələdə “Qafqaz Tufandağ Mountain Resort” hotelinin açılışını edib. Qəbələnin əsas turizm infrastrukturu obyektləri sırasında xüsusi özəlliyi ilə seçilən bu hotelin inşası 2014-2016-cı illərdə həyata keçirilib. Ərazisi 4 hektar olan hotelin tikinti sahəsi 3400 kvadratmetrdir. Beşmərtəbəli binada 50 otaq, o cümlədən 23 standart, 12 ailəvi, 14 junior suite, 1 kral nömrəsi yerləşir. Hoteldə uşaqlar üçün ayrıca yeməkxana və oyun zalı yaradılıb. “Qafqaz Tufandağ Mountain Resort”da sahəsi 1692 kvadratmetr olan terras yaradılıb, xizək ləvazimatlarının kirayəsi və satışı mağazası açılıb, xizək yolu eskalatoru qurulub və təlimlər üçün otaqlar inşa edilib. Bu da qış mövsümündə hoteldə dincələn qonaqların xidmətlərdən yüksək səviyyədə istifadə etmələrinə geniş imkanlar açır. Hotel kompleksində 250 nəfərin daimi işlə təmin edilməsi nəzərdə tutulub.





Prezident İlham Əliyev eyni zamanda Qəbələdə icrası davam edən turizm və idman infrastrukturu layihələri ilə də tanış olub. Layihələrin təqdimatı zamanı dövlət başçısına məlumat verilib ki, “Şinkar Holdinq” MMC tərəfindən aparılan layihələndirmə və tikinti işləri çərçivəsində 2,5 hektar ərazidə 226 nömrədən ibarət yeni “Qafqaz Akva Lənd” hotelinin inşası həyata keçirilir. Tikintisi davam etdirilən infrastruktur layihələrindən biri də “Qafqaz Daymond Akvapark”dır. Bu layihə çərçivəsində müxtəlif təyinatlı hovuzlar şəbəkəsi qurulacaq. Hovuzların ümumi su tutumu 5 min 470 kubmetr olacaq. Bundan əlavə, ərazisi 350 min kvadratmetr olan, “Qəbələnd” əyləncə mərkəzi və “Akva Lənd” hotelinin yaxınlığında dağların bənzərsiz gözəlliyinə açılan mənzərəli bir ərazidə yerləşən “Qəbələ Qolf Villaları” qonaqlara xoş və maraqlı istirahət imkanı təqdim edəcək.

Qəbələdə növbəti səfərində olan Prezident İlham Əliyev deyib: “Bu gün biz Azərbaycana çox böyük turist axınının müşahidə edirik. Ölkəmizin təbii imkanları, şəhərlərimizin gözəlliyi, Azərbaycanda hökm sürən sabitlik, təhlükəsizlik, əlbəttə ki, turistləri daha da çox cəlb edir. Mənə verilən məlumata görə, yay aylarında Qəbələnin çoxsaylı hotellərində boş yer yoxdur. Ölkə vətəndaşları, xarici vətəndaşlar gəlirlər, istirahət edirlər, Azərbaycan ilə tanış olurlar, Qəbələnin gözəlliyini seyr edirlər.Turizm hər bir ölkə üçün çox mühüm əhəmiyyət daşıyan bir sahədir. Şadam ki, Azərbaycanda atılan addımlar, ölkəmizin dünyaya təqdimatı turizmin inkişafına da xidmət göstərir. Qəbələdə son illər yeni binalar, turizm obyektləri, ictimai binalar tikilib. Bir neçə il bundan əvvəl mənim göstərişimlə beynəlxalq aeroport tikilib. Bəziləri bu məsələyə şübhə ilə yanaşırdılar. Ancaq bu gün müxtəlif istiqamətlərə uçuşlar təşkil edilir. Gözəl memarlıq abidəsi olan Mədəniyyət Mərkəzi, bir çox hotellər, Beynəlxalq Atıcılıq Mərkəzi tikilib və bu işlər davam etdirilir. Bax bu gün burada vəziyyətlə tanış olarkən pəncərədən yeni atıcılıq mərkəzinin tikintisini müşahidə etdim”.

Şübhəsiz ki, turizm sektorunda görülən işləri təkcə Qəbələ rayonu ilə məhdudlaşdırmaq olmaz. Çünki Azərbaycanın dörd bir tərəfi turizm bölgəsi kimi tanınır. Masallı, Lerik və Lənkərandan tutmuş Şamaxı, İsmayıllı, Quba, Qusar və Xaçmaz rayonlarınadək hər yeri turizm zonası adlandırmaq olar. Bu bölgələrdə həm dövlət, həm də ayrı-ayrı sahibkarlar tərəfindən lazımi infrastruktur layihələri həyata keçirilir. Deməli, kifayət qədər turizm potensialı olan Azərbaycan bu sahədə dünyanın aparıcı ölkələri ilə rəqabətə girməyə və öz imkanlarını nümayiş etdirməyə qadirdir. Artıq beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilən Azərbaycanda turizm sərgilərinin təşkili bu sahəyə olan marağın göstəricisidir. Belə sərgilər həm də ölkəmizin turizm imkanlarının nümayiş etdirilməsi üçün əlverişli şərait yaradır.

Turizm üçün yararlı olan ərazilərdə yol infrastrukturunun təkmilləşdirilməsi turizmin əhəmiyyətli dərəcədə inkişaf etməsinə gətirib çıxarır. Əsaslı şəkildə yenidən qurulan Qaraməryəm-İsmayıllı avtomobil yolunun bu günlərdə açılışı da məhz bu məqsədə xidmət edir. Yolun əsaslı şəkildə təmir olunması İsmayıllı və Göyçay rayonlarının 30-dan çox yaşayış məntəqəsinin 27 mindən artıq əhalisinin gediş-gəlişini xeyli asanlaşdıracaq. Bundan başqa, Bakı-Şamaxı-Yevlax, həmçinin Bakı-Ələt-Qazax-Gürcüstan ilə dövlət sərhədi avtomobil yollarına maneəsiz şəkildə çıxışı təmin edəcək və regionun turizm sektoruna müsbət təsir göstərəcək.

Dünya təcrübəsi göstərir ki, qeyri-neft sektorunun inkişaf etdirilməsində turizmin xüsusi çəkisi var. Odur ki, Azərbaycanda bu sahənin inkişaf etdirilməsi üçün davamlı addımlar atılır. Həyata keçirilən irimiqyaslı layihələr yaxın gələcəkdə çox mühüm nəticələrin əldə olunmasına imkan verəcək.

*Elgün MƏNSİMOV,*
*“Azərbaycan”*